## *O, ÖLMƏMİŞDİR*

Dünya şahid oldu bir həqiqətə,
Dünyadan ən böyük bir insan getdi.
Hörmətə, izzətə, şöhrətə bir bax,
Bütün bəşər oğlu duasın etdi.

Görən heç oldumu bu günə kimi,
Bir insan öləndə dünya ağlasın.
Ölkələr endirib al bayraqları,
Onun üzərinə qara bağlasın.

İslam aləmində uca tutulur,
Peyğəmbərtək yad edilir, anılır.
Əməlləri daim qəlbdə yaşayır,
Düşmən sevinirsə yəqin yanılır.

Heydər Əliyevin nurlu çöhrəsi,
Hamının qəlbinə işıq saçırdı.
Yuxuda kim görsə bu pak insanı,
Gündüzlər quş olub sanki uçurdu.

Səbirli, təmkinli, dözümlü idi,
Ən haqsız sözə də dözə bilirdi,
Düşmənə ən kəskin, ən sərt sözləri,
O tapıb yan-yana düzə bilirdi.

Müstəqil bir dövlət, cəmiyyət qurdu,
Körpə balası tək baxıb sevindi.
Xalqın azadlığı, xoş günü üçün,
Özünü odlara yaxıb sevindi.

Dilimiz quruyar öldü söyləsək,
Kim deyər o ölmüş, o ölməmişdir.

Qurub-yaratmağı etmişdi adət,
Ölməkçün dünyaya o, gəlməmişdir.

Allah adamıydı, haqdan gəlmişdi,
Onun ölümünə Vətən ağlayır.
Nə yaman qara bir xəbər eşitdik,
Yaxından, uzaqdan ötən ağlayır.

Ey əziz xalqımız, gəlin bir qədər,
Düşünək bir şeyi, biz nikbin olaq.
İlham Əliyev tək baş komandana,
Hay verib düşməndən tez qisas alaq.

Gəlin bir şeyə də biz nikbin olaq
Dünyaya çox insan gəlib gedibdi.
Yer üzündə müdrik insanlar ən çox,
Heydər Əliyevə qibtə edibdi.

***15 dekabr 2003***

***Kamal Fərhadoğlu***

***Dağlara nisgilli bir ağım qaldı. – B.: E.L., 2008.- S.11-12.***